

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (23.784)

7 avqust 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Suraxanı" yarımstansiyasının açılışında iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına məlumat verib ki, yarımstansiya sökülərək açıq tiplidən qapalı tipli variantda tam yenidən qurulub.

Dövlətimizin başçısı yarımstansiyanı işə salıb.

"Suraxanı" yarımstansiyasında müasir avadanlıq quraşdırılıb. Yarımstansiya Suraxanı rayonunu, Sabunçu və Xəzər rayonlarının bir hissəsini, o cümlədən bir neçə digər sosial strateji və sosial infrastruktur obyektini elektrik enerjisi ilə təchiz edəcək.

Xüsusi layihə əsasında "Suraxanı" yarımstansiyasının gərginliyi dəyişdirilərək 110/20/6 kilovoltluqdan 110/35/6 kilovoltluğa keçirilib, itkilərin azaldılmasına nail olunub. Eyni zamanda yarımstansiyanın transformatorlarının ümumi gücü də 126 meqavolt amperədək artırılıb. Müasir avadanlığın quraşdırılması nəticəsində yarımstansiyanın istismar xərclərinin azaldılmasına, işçi heyətin təhlükəsiz əmək fəaliyyətinə, avadanlıqların ətraf mühitin zərərli təsirindən qorunmasına və yarımstansiyanın daha səmərəli fəaliyyət göstərməsinə nail olunub.



Dövlət proqramı icra olunur

## Dövlət dəstəyi arıçılığın inkişafını stimullaşdırır

***Naxçıvanın təbii-iqlim şəraiti aqrar istehsalın digər sahələri ilə yanaşı, arıçılığın inkişafı üçün də əlverişli imkanlar açır. Təbii resurslarla yanaşı, bu sahəyə dövlət dəstəyinin göstərilməsi nəticəsində arı ailələrinin sayı artırılır, məhsuldarlıq yüksəldilir, bal istehsalı və satışı genişləndirilir. Arıçılıqda məqsəd digər kənd təsərrüfatı sahələrində olduğu kimi ən az xərclə ən yüksək mənfəət əldə edilməsidir.***

Naxçıvanda çoxəsrlik tarixə malik olan arıçılıq kompleks yanaşmanı ehtiva edən plan və proqramların təsdiqi, eləcə də dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində görülən işlər nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Arı ailələrinin çoxaldılmasının stimullaşdırılması, təbii bal məhsulunun istehsalının təşviqi ilə bağlı həyata keçirilən tədbirlər muxtar respublikada bu sahədə yeni nailiyyətlərin qazanılmasına gətirib çıxarmışdır. Müasir şəraitdə istehsal olunan məhsulların istehlakçıya çatdırılması, satışının təşkili bütün istehsal sahələrinin ümdə vəzifəsidir. Bu vəzifənin uğurlu həlli nəticəsində istehsal edilən məhsullar tez bir müddətdə realizə olunaraq qazanılan vəsait təkrar istehsala qaytarıla bilir. Belə olan halda, istehsal edilən mallar əldə qalmır, səmərəli fəaliyyət təmin olunur, istehsal həcminin artırılmasına və yeni sahələrin yaradılmasına maraq daha da artır. Hər il keçirilən bal festivalının ənənəvi xarakter alması isə istehsalçıların öz məhsullarını geniş alıcı kütləsinə təqdim etməsi və istehlakçıların çeşidli bal məhsullarına əlçatanlığının asanlaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bütün bu işlərin davamlılığının təmin edilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilən "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır. Proqramın icrası baxımından cari ilin ikinci rübü arıçılığa dövlət dəstəyinin artaraq davam etməsi ilə yadda qalmışdır. Belə ki, bu dövrdə muxtar respublikada 5 arıçılıq təsərrüfatına 69 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İkinci rübdə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində 1 arıçılıq təsərrüfatının genişləndirilməsi, Babək və Şahbuz rayonlarının hər birində 2 arıçılıq təsərrüfatının yaradılması başa çatdırılmışdır. Həmçinin proqramın icrasına uyğun olaraq Naxçıvan şəhəri və Babək rayonunun hər birində 2, Ordubad və Culfa rayonlarının hər birində isə 1 arıçılıq təsərrüfatının yaradılması davam etdirilmişdir.

Arıla təsərrüfatçıları ilə mayın 6-da Şahbuz rayonunun Ağbulaq kəndində keçirilən görüşdə "Damazlıq ana arı yetişdirmə təsərrüfatı", iyunun 22-də Şərur rayonunun Günnüt kəndində keçirilən müşavirədə eyni başlıqlı, eləcə də "Balın emalı və qablaşdırılması sahəsi" mövzulu layihələr təqdim edilmiş və iştirakçılara maarifləndirici bukletlər paylanmışdır.





Arıçılığa göstərilən dövlət dəstəyinin mühüm təzahürlərindən biri də hər il qeydiyyata alınan arı ailələri üzrə arıçı sahibkarlara subsidiyaların ödənilməsidir. Subsidiyaların verilməsində məqsəd arı ailələrinin genofondunu qorumaq və arıçılıqla məşğul olan sahibkarların fəaliyyətinin davamlı olmasına nail olmaqdır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tədbirlərin 2021-ci il üçün icrası diqqət mərkəzində saxlanılmışdır. Aprel ayında muxtar respublikada qeydiyyata alınan arı ailələri üzrə 3 min 965 sahibkara, ümumilikdə, 997 min 400 manat məbləğində subsidiyanın ödənilməsi təmin edilmişdir. Hər arı ailəsi üçün 10 manat olmaqla, ödənilən bu vəsait arıçıların arı ailələrinin sayını artırması üçün stimullaşdırıcı xarakter daşıyır.

Muxtar respublikanın ərazisi arıçılığın inkişafı baxımından əlverişli təbii-iqlim şəraitinə və balverən zəngin bitki örtüyünə malikdir. Öz növbəsində, arıçılıq iqtisadi cəhətdən yüksək rentabelli fəaliyyət sahəsi, əhalinin sağlamlığını qoruyan qida və müalicə əhəmiyyətli məhsullar mənbəyi, həmçinin kənd təsərrüfatının digər sahələrində məhsuldarlığın yüksəldilməsinə ciddi töhfə verən ekoloji amildir. Arıçılıq kənd təsərrüfatının elə bir sahəsidir ki, onun inkişafı ətraf mühitə mənfi təsir etmir, əksinə, biomüxtəlifliyin qorunmasına, kənd təsərrüfatı bitkilərinin daha yaxşı tozlandırılmasına və bununla da, keyfiyyətinin və məhsuldarlığının yüksəldilməsinə gətirib çıxarır.

Arıçılığa dövlət qayğısı həm də özünü arı ailələrinin sığortalanması ilə bağlı həyata keçirilən tədbirlərdə büruzə verir. Qeyd etmək lazımdır ki, arıçılıq kənd təsərrüfatının faydalı və gəlirli sahələrindən olsa da, bu istiqamətdə həyata keçirilən fəaliyyətə zərər vura biləcək təhlükəli faktorlar da az deyil. Öncədən proqnoz verilməsi mümkün olmayan təbiət hadisələri, xüsusi təhlükəli ziyanvericilər, müxtəlif yoluxucu xəstəliklər arıçılıq fəaliyyətinə ciddi zərər vura bilər. Sahibkarın təsərrüfatındakı arı ailələrini sığorta etdirməsi onun öz xərclərini zəmanət altına alması deməkdir. Dövlət proqramının icrası məqsədilə ikinci rübdə muxtar respublikada 140 arı ailəsinin sığortalanması bu istiqamətdə işlərin uğurla davam etdirildiyini deməyə əsas verir.

Naxçıvanda mum vərəqinin yerli istehsal məhsulu kimi təqdim olunması arıçılıq sahəsində əldə edilən mühüm nailiyyətlərdəndir. Onu da qeyd etmək lazımdır ki, muxtar respublikada istehsal olunan mum vərəqinin keyfiyyətli olması arıçıların fəaliyyətinin məhsuldarlığına müsbət təsir göstərir. İkinci rübdə Şahbuz şəhərində fəaliyyət göstərən "Naxçıvan arıçılığı" Məhdud Məsuliyyətli Cəmiyyətində 830 kiloqram mum vərəqi istehsal edilmişdir. İstehsal olunan məhsulun 534,5 kiloqramının arıçılara satışının həyata keçirilməsi onu göstərir ki, bu məhsulun yerli istehsal hesabına ərsəyə gətirilməsi sahibkarlar üçün də sərfəli imkanların mövcudluğu deməkdir.

Muxtar respublikada arı xəstəliklərinin qarşısının alınması istiqamətində görülən işlər yerli arı genofondunun mühafizəsi və arıçıların dövlət qayğısı ilə əhatə olunması məqsədi daşıyır. Mütəmadi olaraq laboratoriyalarda arı xəstəlikləri ilə bağlı nümunələrin yoxlanılması baş verə biləcək mənfi halların vaxtında aradan qaldırılması baxımından həyati əhəmiyyət kəsb edir. Bununla yanaşı, istehsal olunan arıçılıq məhsullarının da analizlərə cəlb edilməsi istehlakçılara təklif olunan balın keyfiyyətini yüksəldən başlıca faktor hesab edilir. İkinci rübdə epizootik tədbirlər planına əsasən Amerika və Avropa çürüməsi, eləcə də Varroatoz, Akarapidoz, Nozematoz və digər arı xəstəliklərinə qarşı 15 min 804 nümunə üzərində yoxlama aparılmış, infeksion xəstəlik aşkar edilməmişdir. Bundan əlavə, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin mərkəzi qida sınaq laboratoriyasında arıçılıq təsərrüfatlarında istehsal olunan təbii bal məhsulundan 4 halda nümunələr götürülərək keyfiyyət və təhlükəsizlik göstəricilərinin təyini məqsədilə təhlillər aparılmışdır. Nəticədə, nümunələrin keyfiyyət göstəricilərinin normativ texniki sənədlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

İkinci rübdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə maarifləndirmə tədbirləri davam etdirilmişdir. Belə ki, bu dövrdə Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Mahmudkənd, Oğlanqala, Günnüt, Kəngərli rayonunun Çalxanqala, Ordubad rayonunun Əylis, Culfa rayonunun Ərəfsə, Şahbuz rayonunun Sələsüz kəndlərində və Batabat yaylağında arıçılarla maarifləndirici görüşlər keçirilmişdir. Bu görüşlərdə iştirakçılara arıçılıq məhsullarının istehsalının artırılması üçün xammal bazasının yaradılması məqsədilə yonca, xaşa, şənbəllə, xəşənbül bitkilərinin əkin sahələrinin genişləndirilməsi, bitkilərin vegetasiya müddəti başa çatdıqdan sonra ot biçininin həyata keçirilməsi tövsiyə olunmuşdur. Həmçinin aprel-iyun aylarında Babək rayonunun Güznüt, Çeşməbasar, Ordubad rayonunun Bist, Nəsirvaz, Culfa rayonunun Əbrəqunus, Şahbuz rayonunun Qızıl Qışlaq, Biçənək kəndlərində arıçılar və kənd sakinləri arasında arıçılıq təsərrüfatlarının yerləşdiyi ərazilərdə balyığma mənbəyi hesab olunan ağac və kolların kəsilməsinin qarşısının alınması məqsədilə maarifləndirmə işi aparılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının dinamik inkişaf etdiyi hazırkı dövrdə arıçılıq təsərrüfatlarının fəaliyyətinin yüksəldilməsi, məhsul istehsalının artırılması və iqtisadi səmərəliliyinin təmin edilməsi bu sahənin məhsullarına tələbatın tam ödənilməsinə şərait yaradır.

**"Şərq qapısı"**

## Torpaqların su təminatı yaxşılaşdırılır

*Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.*

Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün iyul ayında bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 34,73 milyon kubmetr su verilmiş, bunun müqabilində 29 min 320 hektar torpaq sahəsi suvarılmışdır. Ay ərzində 6,65 kilometr beton və torpaq kanal, 21,16 kilometr ara arx və 5,8 kilometr kollektor lildən təmizlənmiş, 2,55 kilometr uzunluğunda yeni suvarma boru xətti çəkilmişdir. Qeyd olunan dövrdə Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 109,4 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Muxtar respublikada su təminatının həyata keçirilməsində subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Qeyd olunan dövrdə 93 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

İyul ayında həyata keçirilən tədbirlər sırasında əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması da diqqətdə saxlanılmış, 260 metr yeni içməli su xətti, 152 metr yeni kanalizasiya xətti çəkilmiş, 500 metr kanalizasiya xəttində isə təmir-bərpa işləri aparılmışdır.

Babək rayonunun Nehrəm qəsəbəsinin Əlincə, Cəhri qəsəbəsinin və Çeşməbasar kəndinin kaptajlarının 247, Şahbuz rayonunun İşgəsu və Biçənək, Ayrınc kənd kaptajlarının 250, Culfa rayonunun Bənəniyar kəndinin kaptajının 25, Ordubad rayonunun Aza, Dəstə və Qoşadizə kəndlərinin kaptajlarının isə 500 metrlik ərazilərində təmir-bərpa işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

# Böyük elm məbədgahı – AMEA Naxçıvan Bölməsi

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Sərəncamına müvafiq olaraq yaradılıb. Bölmənin yaradılmasının zəruriliyindən bəhs edən ümummilli lider demişdir:* ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".***



Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkil edilməsi haqqında" 2002-ci il 26 avqust tarixli Qərarına əsasən bölmə tərkibindəki institutlar Naxçıvan Regional Elm Mərkəzi, Naxçıvan Elmi-Tədqiqat Bazası və Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyalarından təşkil olunub.

Sərəncama müvafiq olaraq bölmədə 6 elmi-tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, eləcə də İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradılıb.

Tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmə göstərdiyi diqqət və qayğının nəticəsində AMEA Naxçıvan Bölməsi üçün yeni infrastruktur yaradılıb və bu, ildən-ilə daha da müasirləşdirilib.

Elmin inkişafı həm də yüksəkixtisaslı elmi kadrların səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. 2003-cü ilin yanvarında 139 əməkdaşla, o cümlədən 51 elmi işçi ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsinin kadr potensialının artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarına, təhsil müəssisələrinin doktoranturalarına gənc elmi kadrlar göndərilmiş, magistr təhsilli gənclər işə dəvət edilmişdir. Bu diqqət və qayğı sonrakı illərdə də davam etdirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007, 2014 və 2017-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü isə müxbir üzv seçilmişdir. Hazırda AMEA Naxçıvan Bölməsində işçilərin ümumi sayı 256, elmi işçilərin sayı 97 nəfərə çatmışdır. Elmi işçilərdən 2-si AMEA-nın həqiqi üzvü, 4-ü AMEA-nın müxbir üzvü, 4-ü elmlər doktoru, 53-ü fəlsəfə doktorudur ki, bu da fəaliyyət göstərən elmi potensialın 68,5 faizini təşkil edir. Elmi əməkdaşların 47-nin 6-sı professor, 41-i dosentdir.

2006-cı ildən bu günə kimi AMEA Naxçıvan Bölməsində Vətən tarixi və Arxeologiya ixtisasları üzrə elmlər doktoru, Fiziki kimya və Qeyri-üzvi kimya ixtisasları üzrə isə fəlsəfə doktoru Dissertasiya Şuraları yardılmışdır. Bölmənin fəaliyyəti dövründə şuralarda 15 nəfər elmlər doktoru, 94 nəfər isə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir.

AMEA Naxçıvan Bölməsinin fəaliyyətini müəyyənləşdirərkən ulu öndərin ideyalarına əsaslanan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi... yaranmış şəraitdən məqsədyönlü istifadə etməli, elmi araşdırmalar nəticəli olmalı, onların praktikada tədbiqi işinə diqqət artırılmalı, muxtar respublikanın tarixi, arxeologiyası, təbii sərvətləri və onlardan istifadə imkanları barədə tədqiqatlar davam etdirilməli, fundamental nəşrlər hazırlanmalıdır".*** Bu tapşırıqlar rəhbər tutularaq Naxçıvan gerçəklərinin Azərbaycan elmi mühitinə, eləcə də dünya elminə çatdırılması sahəsində də mühüm işlər həyata keçirilmiş, bölmənin 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvanın folkloru antologiyası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası, "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyət və perspektivlər", 2 cilddə Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", 2 cilddə "Naxçıvan coğrafiyası" kimi fundamental nəşrləri işıq üzü görmüşdür. Həmçinin bölmənin fəaliyyəti dövründə əməkdaşların 248 monoqrafiyası, 229 kitabı, 6 dərsliyi, 7 kitabçası, 28 metodik vəsaiti, 9448 elmi məqalə və konfrans materialı, 229 tezisi, 23 xəritəsi çap olunmuşdur. Əsərlərdən 28 monoqrafiya, 19 kitab, 2020 məqalə və konfrans materialı, 81 tezis xaricdə çapdan çıxmışdır. Elmi məqalələrdən 315-i "Web of Science", "Scopus" və digər elmi bazalara daxil olan impakt faktorlu jurnallarda çap edilmişdir. Bölmə əməkdaşlarının əsərlərinə 1474 istinad qeydə alınmışdır. Əməkdaşlar açıq dünya ensiklopediyası Vikipediyanın ingilis və rus-dilli səhifələrində Naxçıvan tarixi ilə bağlı erməni iddialarını əks etdirən məqalələrin redaktəsini həyata keçirmiş, Azərbaycan dilli Vikipediya ensiklopediyasında Naxçıvanla bağlı 238 yeni məqalə yerləşdirmişlər.

Bölmə əməkdaşları 5 tövsiyə, 51 buklet hazırlamış, 37 patent almışlar. Əməkdaşların ixtiraçılıq sahəsində nailiyyətlərə görə III, IV və V respublika müsabiqələrində təqdim etdiyi ixtira patentləri qalib olmuş, diploma layiq görülmüşdür. Ötən dövr ərzində bölmənin iki seriyada nəşr olunan "Elmi əsərlər" jurnalının 64 nömrəsi, "Axtarışlar" jurnalının isə 40 nömrəsi işıq üzü görmüşdür. Bölmənin əməkdaşlarının məqalələri əsasında "İrs", "Naxçıvan", "Yol", "Folklor Ədəbiyyat", "Qafqaz", "Elm və həyat" jurnallarının xüsusi nömrələri Naxçıvana həsr edilmişdir. Ötən dövrdə bölmə əməkdaşları 4-ü beynəlxalq olmaqla, 23 qrant layihəsinin qalibi olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əməkdaşları tərəfindən muxtar respublika ərazisində 1200-dən çox tarix və mədəniyyət abidəsi aşkar olunmuş və pasportlaşdırılmışdır. Bu abidələrdən 57-si dünya, 485-i isə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci il 7 oktyabr tarixli "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" və 2016-cı il 4 iyul tarixli "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" sərəncamları rəhbər tutularaq yaradılmış tədqiqat qrupları hər üç tarixi abidə üzrə bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasına və tədqiq edilməsinə çalışmış, hər üç tarixi abidə haqqında kitablar nəşr olunmuşdur.

"Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 sentyabr tarixli Sərəncamına əsasən AMEA Naxçıvan Bölməsində Araz-Türk Cümhuriyyəti ilə bağlı toplanmış materiallar əsasında tədqiqat aparılmış və monoqrafiya çap edilmişdir. "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncama və Tədbirlər Planına əsasən "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmalara başlanılmış, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsinin Qars müqaviləsinin 100 illiyinə həsr edilməsi ilə bağlı elmi məqalələr hazırlanaraq sistemləşdirilmiş, Qars müqaviləsi ilə təsbit olunmuş ərazinin xəritəsi hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncam və tövsiyələri ilə Naxçıvan ədəbi-mədəni mühitinin görkəmli nümayəndələrindən Hüseyn Cavidin, Məhəmmədağa Şahtaxtlının, Cəlil Məmmədquluzadənin, Eynəli bəy Sultanovun, Məmməd Səid Ordubadinin, Məmməd Arazın, Nemətullah Naxçıvaninin, Ərtoğrol Cavidin, Nağı Nağıyevin və digərlərinin yubileyləri ilə əlaqədar elmi və bədii yaradıcılıqları AMEA Naxçıvan Bölməsində tədqiq edilmişdir. Araşdırmalar nəticəsində bölmənin təsis etdiyi "Taleyi və sənəti" seriyası üzrə 14 toplu nəşr olunmuşdur.

Naxçıvanda milli dəyərlər sisteminin qorunması və inkişafı sahəsində də kompleks tədbirlər görülərək tədqiqatlar aparılmışdır. Xalqımızın tarixi yaddaşının tərkib hissəsi olan yallı sənəti araşdırılmış, nota köçürülmüş, "Naxçıvan – Şərur el yallıları" kitabı nəşr olunmuşdur. Bu sahədə görülən işlərin davamı olaraq 26 noyabr-1 dekabr 2018-ci il tarixlərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 24 dekabr tarixli Sərəncamı ilə Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planına əsasən AMEA Naxçıvan Bölməsində Şərur yallılarına dair geniş və sistemli araşdırmalar aparılmaqdadır. Elmi tədqiqatların ilkin nəticəsi olaraq "Azərbaycanın ən qədim yallılarından biri "Köçəri" toplusu çap olunmuşdur.

AMEA Rəyasət Heyətinin iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir".***

AMEA Naxçıvan Bölməsi fəaliyyəti dövründə icra edilən elmi-tədqiqat işlərinin 182 mühüm nəticəsi AMEA-nın illik hesabatlarına daxil edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələri ilə elmdən istehsalata prinsipi əsasında fəaliyyət göstərərək tədqiqatlar aparan bölmə bir çox məhsulların hazırlanmasına nail olmuşdur. Belə ki, "Şorsu" palçığının tərkibi analiz edilmiş və iki növdə müalicəvi dərman məhsulları hazırlanaraq istifadəyə verilmişdir. Həmçinin Darıdağ termal suyunun quru qalığını almaq üçün şərait yaradılmış və məhsul istehsal edilmişdir. Qabıllı və Duzdağdan gətirilmiş gil nümunələrindən yuyucu vasitə istehsalı üçün hazırlıq işləri həyata keçirilmiş, nümunələr hazırlanmışdır. Biləv alüminium süxurunun işlənməsindən kalium alüminium zəyi alınmış, qablaşdırılmış və bu istiqamətdə işlər davam etdirilmişdir.

Bölmənin Ordubad rayonunun Aşağı Əylis kəndində yerləşən Biokimyəvi tədqiqatlar laboratoriyasının bazasında bitkilərdən müxtəlif efir yağları, gülab, boya, doşab alınması planlaşdırılıb və artıq 2-ci ildir ki, gülab istehsal edilir. 2021-ci ildə 120 litrə qədər gülab, ərik, albalı kompotu və şirəsi, yemişan kompotu, tut, cəviz, ərik, albalı, gilas, gül mürəbbələri və alma sirkəsi istehsal edilmişdir. Laboratoriyanın imkanlarından istifadə etməklə gələcəkdə sarıçiçəkdən həm rəng, həm də onun toxumundan yağ, müxtəlif çeşidli mürəbbələr və kompotlar da istehsal etmək mümkün olacaqdır. Çaytikanı yağı istehsalı məqsədilə Biokimyəvi tədqiqatlar laboratoriyasının Aşağı Əylis kəndində yerləşən ərazisində yeni çaytikanı tinglərinin əkilməsi həyata keçirilmişdir. Həmçinin AMEA Naxçıvan Bölməsində 16 adda bitki qarışıqlarından dərman paketlərinin hazırlanması və satışı işi davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış üçüncü sessiyasında çıxış edən Ali Məclisin Sədri bölmənin qarşısında duran bir sıra vəzifələrin icrasını qeyd edərək demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi naxçıvanşünaslığın tədqiqi ilə bağlı elmi araşdırmaları davam etdirməli, elmi yeniliklərin və innovativ layihələrin istehsalatda tətbiqini həyata keçirməli, Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu ilə birgə "Elm festivalı"nın yüksək səviyyədə təşkilini təmin etməlidir. Bölmə Naxçıvan elmi mühitinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirməli, tanınmış elmi qurumlarla əlaqələri genişləndirməlidir".***

Fəaliyyəti dövründə AMEA Naxçıvan Bölməsi 20-dən çox elm və təhsil mərkəzi, o cümlədən ABŞ, Fransa, Polşa, Türkiyə, Rusiya, İran, Gürcüstan və Qazaxıstan elm və təhsil müəssisələri ilə sıx elmi əlaqələr qurmuşdur.

Dövlətin dəstəyi ilə hər il AMEA Naxçıvan Bölməsinin tədqiqatçıları elmi ezamiyyələrə göndərilmiş, dünyanın bir sıra arxiv, muzey və kitabxanalarda olmuş, orada Naxçıvanla bağlı toplanılan yeni materiallar tədqiqata cəlb etmişlər.

İlk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı 2009-cu ilin 21 fevralında və AMEA Rəyasət Heyətinin səyyar iclasının 2015-ci ilin 6 iyulunda Naxçıvanda keçirilməsi Naxçıvanda elmi mühitin formalaşmasından, elm sahələrinin inkişaf etməsindən və elmi nəticələrin yüksək qiymətləndirilməsindən xəbər verirdi. Hər iki iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak etmiş və proqram xarakterli çıxış etmişdir.

Ötən fəaliyyət dövründə bölmədə müxtəlif elm və tədris müəssisələrinin iştirakı ilə 17 beynəlxalq səviyyəli simpozium və konfranslar keçirilmişdir. Bunlardan "Mustafa Kamal Atatürk – Heydər Əliyev – Naxçıvan: həyat və inkişaf modeli", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Atatürkdən Heydər Əliyevə, Nizamidən Yunus İmrəyə: tarixi-ədəbi, ənənələr və müasir dövr", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ", "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir", "Naxçıvanda Dədə Qorqud", "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə", "Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı", "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani", "Naxçıvan Muxtar Respublikası: Dayanıqlı inkişaf, uğurlar, perspektivlər", "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" beynəlxalq konfrans və simpoziumlarını qeyd etmək olar. Bölmə əməkdaşları Oksford, Dallas, İslamabad, Tokio, Vyana, Moskva və digər şəhərlərdə 541 beynəlxalq elmi simpozium və konfranslarda çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Universitetində 10 ixtisas üzrə təhsil alan tələbələr bölmənin hamiliyinə verilmiş, elmi dərəcəsi olan əməkdaşların muxtar respublikanın ümumtəhsil məktəblərindəki nümunəvi dərslərdə iştirakı təşkil olunmuş, AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi "Sabahın tədqiqatçıları" layihəsini həyata keçirmiş, ölkə təhsilində ilk dəfə olaraq "İnteraktiv açıq dərs" layihəsi çərçivəsində müxtəlif mövzularda interaktiv açıq dərslər təşkil olunmuş, "Startap Naxçıvan" hərəkatının həyata keçirilməsində bölmə də fəal iştirak etmişdir. Bütün bunlar Naxçıvanda müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət göstərir.

AMEA Naxçıvan Bölməsinin səmərəli elmi fəaliyyəti ölkə rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirilmişdir. Əməkdaşlardan "Şöhrət" ordeninə, "Tərəqqi" medalına, "Əməkdar elm xadimi", "Əməkdar müəllim", "Əməkdar jurnalist" fəxri adlarına, Prezident mükafatına və fərdi təqaüdünə layiq görülənlər olmuşdur. Əməkdaşlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Qızıl medal"ına layiq görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı, "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" nişanı ilə təltif edilmişdir. "Naxçıvan tarixi" çoxcildliyi, "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası Naxçıvan Muxtar Respublika mükafatına, "Tarixi mənbələrdə Nuh Peyğəmbər", "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabları Ali Məclis Sədrinin mükafatına layiq görülmüşdür.

*AMEA Naxçıvan Bölməsi qarşıya qoyulan vəzifələrin bundan sonra da yüksək səviyyədə yerinə yetirilməsinə, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərinin müasir tələblərə cavab verə biləcək səviyyədə aparılmasına çalışacaqdır.*

**Orxan BAĞIROV**
***AMEA Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent***

*Azərbaycan Respublikasında, o cümlədən onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasında baş verən ictimai-siyasi hadisələrin, quruculuq işlərinin təhrif olunmadan və obyektiv şəkildə xalqımıza və dünya ictimaiyyətinə çatdırılmasında kütləvi informasiya vasitələrinin rolu əvəzedilməzdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kütləvi informasiya vasitələrinin inkişafına həmişə qayğı ilə yanaşmasının ifadəsidir ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Sərəncam imzalayıb.*

*"Şərq qapısı" – 100*

# Qədim tariximiz "Şərq qapısı" qəzetinin səhifələrində



Öncə onu qeyd edək ki, "Şərq qapısı" qəzeti nəşrə başladığı gündən qədim tariximizin təbliğatçısına çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Arxeoloji araşdırmalar zamanı Ordubad rayonunun Sabir Dizə, Kəngərli rayonunun Şahtaxtı yaşayış yerində və Şərur rayonunun Ovçular təpəsi yaşayış yerində aşkar olunan Daş dövrünə aid alətlər Naxçıvanda qədim insanların iki milyon il bundan əvvəl məskunlaşdığını təsdiq edir. Qazma mağarasındakı tədqiqatlar Paleolit dövrünün orta və son mərhələsində Naxçıvanda həyatın davam etdiyini göstərir. Arxeoloji materiallarda Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu təsdiq edir. Qədim tariximizin öyrənilməsi ilə bağlı ilk nəticələrin əks olunduğu qəzetlərimizdən biri məhz "Şərq qapısı" qəzetidir.

Naxçıvanda tarix və mədəniyyət abidələrimizin öyrənilməsinə göstərilən dövlət qayğısı tariximizin yeni səhifələrinin açılmasına səbəb olmuş və bu səhifələr "Şərq qapısı" qəzetinin səhifələrində ardıcıl şəkildə işıqlandırılmışdır. Naxçıvanda Daş dövrünün ən geniş öyrənilmiş abidəsi I Kültəpə yaşayış yeridir. Araşdırmalar I Kültəpədə insanların eramızdan əvvəl VII minilliyin ikinci yarısından məskunlaşdığını göstərir. Qəzetdə 18 aprel 2017-ci ildə "Kültəpədə arxeoloji qazıntılar (2013-2016)" adlı kitab işıq üzü görüb" sərlövhəsi ilə dərc olunmuş məqalədə I Kültəpə və onun ətrafında aparılan arxeoloji tədqiqatlar haqqında ətraflı məlumat verilib, bu yaşayış yerinin Cənubi Qafqazın ən qədim Neolit məskəni olduğu qeyd edilib. 22 fevral 2021-ci ildə nəşr olunan "Naxçıvanda aşkar olunan yeni Neolit abidəsi xüsusi əhəmiyyəti ilə seçilir" adlı məqalədə Azərbaycanın, həmçinin Naxçıvanın tarixi üçün müstəsna əhəmiyyəti olan Osmantəpə yaşayış yerindən bəhs olunmuş, yaşayış yerindən aşkarlanmış arxeoloji materialların Mezolitdən Neolitə keçid dövrünü əks etdirdiyi oxuculara çatdırılmışdır. Araşdırmalar göstərir ki, Naxçıvanın Neolit mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlər Ağrı vadisinə və Mil-Muğan düzlərinə yayılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra tarixi abidələrimizin öyrənilməsinə diqqət daha da artırılmış, yurdumuzun tarixi hərtərəfli araşdırılmış, Naxçıvan şəhərində məskunlaşmanın 8 min il bundan əvvəl başladığı müəyyən edilmişdir. "Şərq qapısı" qəzetinin 29 yanvar 2020-ci il tarixli nömrəsində nəşr olunan "Naxçıvan – qədim diyar" adlı məqalədə Naxçıvanın Urmiya hövzəsi, Aran Qarabağ və Şərqi Anadolunu əhatə edən Dalma Təpə mədəniyyətinin əsas mərkəzlərindən biri olduğu göstərilmişdir. Ümumiyyətlə, qəzetdə dərc edilmiş məqalələrdə Neolit və Eneolit dövründə Naxçıvanın qədim sakinlərinin Göyçə hövzəsinə və Zəngəzura nəzarət etdiyi aydın şəkildə göstərilmişdir ki, bu da həmin torpaqların xalqımızın qədim məskənləri olduğunu təsdiq edir. Araşdırmalar göstərir ki, Cənubi Qafqazda Eneolit dövrünün erkən mərhələsi hələlik Naxçıvan abidələri ilə təmsil olunmuşdur.

Naxçıvanda yerləşən Naxçıvantəpə, Uçan ağıl, Uzunoba, Bülövqayası, Ovçular təpəsi, Sədərək, Xələc, Ərəbyengicə, Zirincli, Qələməbulaq və digər abidələrin öyrənilməsi Eneolit mədəniyyətinin ardıcıl mərhələlərini izləməyə və bu mədəniyyətlərin Azərbaycan üçün xarakterik olduğunu müəyyən etməyə imkan vermişdir. Tədqiqatçılar tərəfindən aşkar edilən elmi yeniliklər hər zaman "Şərq qapısı" qəzetinin gündəmində olmuşdur. Bu baxımdan Azərbaycanın, o cümlədən Naxçıvanın Son Eneolit mədəniyyətinin öyrənilməsi üçün əhəmiyyəti olan, 2006-2013-cü illərdə tədqiq edilən Ovçular təpəsi abidəsi mühüm rola malikdir. "Şərq qapısı" qəzetinin 13 noyabr 2008-ci il tarixli nömrəsində dərc olunan "Ovçular təpəsi" adlı məqalədə bu yaşayış yerində aparılan tədqiqatlar nəticəsində Eneolit dövrünün müxtəlif mərhələlərinin aşkar olunması, Son Eneolitdən Kür-Araz mədəniyyətinə keçidin əlamətlərini əks etdirən arxeoloji tapıntılardan bəhs edilmişdir. Araşdırmalar Eneolit mədəniyyətinin Urmiya hövzəsi və Şimali Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişafını təsdiq edir. Tədqiqatlar göstərir ki, Mesopotamiyanın Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Şübhəsiz ki, bu miqrasiyalar Naxçıvanı da əhatə etmişdir. Məlum olduğu kimi, Ubeyd mədəniyyəti protoşumerlərə və şumerlərə aid edilmişdir. Şumer dilinin türk dilləri ilə bağlı olmasına dair inkaredilməz dəlillər aşkar edilmişdir. Son illərin araşdırmaları zamanı Ovçular təpəsindən aşkar olunan heyvan qalıqlarının tədqiqi bu heyvanların, təqribən, eramızdan əvvəl VIII-VII minilliklərdə qədim əkinçilik mədəniyyətlərinin ardınca Naxçıvana gəldiyini təsdiq edir. Lakin heyvanlar müəyyən dəyişikliyə uğrayaraq yerli şəraitə uyğunlaşmış və İkiçayarasında yaşayan əcdadlarından bir qədər fərqlənmişlər. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsirini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramikanın bir qismi, o cümlədən Xələc boyalı keramikası Cənub mədəniyyətlərinin təsiri ilə ortaya çıxmışdır. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Sirab ətrafında qeydə alınan Zirincli, Uçan ağıl və digər yaşayış yerlərində mis filizinin minerallarına rastlanması, Zirincli yaşayış yerində isə mis baltalar tökmək üçün qəlibin aşkar olunması bunu bir daha təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına tələbatın artması da müəyyən rol oynamışdır. Bununla belə, Naxçıvanın qədim əkinçilik mədəniyyətlərinin cənubdan gətirildiyi nəticəsinə gəlmək olmaz. Şübhəsiz ki, bəzi xarici amillər yerli mədəniyyətə təsir göstərsələr də, onlarla qaynayıb qarışmış, vahid etnos halında formalaşmışdır. Eneolit dövründə iqtisadiyyatın aparıcı sahələri əkinçilik, maldarlıq, dulusçuluq və metalişləmə olmuşdur. Tariximizin müxtəlif mərhələlərini əks etdirən bu abidələr haqqında məlumatlar "Şərq qapısı" qəzetinin səhifələrində ardıcıl şəkildə işıqlandırılmışdır.

Naxçıvanın Eneolit və Tunc dövrü mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyəti olan abidə komplekslərindən biri də Gəmiqaya təsvirləridir. Bu abidələr kompleksinin öyrənilməsində "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 26 aprel tarixli Sərəncamının böyük əhəmiyyəti olmuşdur. Eneolit və Tunc dövrlərinin əvəzedilməz sənət əsərləri sayılan Gəmiqaya təsvirləri Nuh Peyğəmbərin adı ilə bağlı olduğundan Sovet dövründə onların araşdırılmasına diqqət verilməmiş və unudulmuşdu. Sənət nümunələrinin tədqiqi Naxçıvanın qədim tayfalarının həyat tərzini və ideoloji görüşlərini öyrənməyə imkan vermişdir. "Şərq qapısı" qəzetinin 20 sentyabr 2001-ci il tarixli nömrəsində dərc edilən "Gəmiqayanın qayaüstü təsvirləri", 14 avqust 2001-ci il tarixli nömrəsində işıq üzü görən "Dünyanı su basması haqqında əfsanə", 8 noyabr 2001-ci il tarixli nömrəsində dərc olunmuş "Gəmiqayanın rəsmləri mifoloji düşüncə tərzidir", 31 avqust 2005-ci il tarixli nömrəsində dərc olunmuş "Gəmiqaya təsvirlərinin nağıl dünyası" və digər məqalələrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına uyğun olaraq Gəmiqaya abidəsinə təşkil edilən beynəlxalq və yerli ekspedisiyalardan, qayaüstü təsvirlərin tariximizin öyrənilməsi üçün əhəmiyyətindən bəhs edilmişdir.

Əlverişli coğrafi mövqeyi, onun Yaxın Şərq ölkələri ilə bilavasitə qonşuluqda yerləşməsi baxımından Naxçıvan ərazisi Yaxın Şərqlə Cənubi Qafqaz arasında iqtisadi-mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır. Naxçıvanın daşduz və mineral xammal mənbələri ilə zəngin olması, habelə bu ərazinin Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən ticarət yolunun qovşağında yerləşməsi ticarətin və sənətkarlığın inkişafına əlverişli şərait yaratmışdır. Son illərin tədqiqatları eramızdan əvvəl V-IV minilliklərdə Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən obsidian ticarətində Naxçıvanın mühüm yer tutduğunu göstərir. Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Duzdağda apardığı araşdırmalar eramızdan əvvəl V minillikdə mədənçiliyin Naxçıvan sakinlərinin həyatında mühüm yer tutduğunu, duzun yalnız şəxsi istehlak üçün deyil, həm də ticarət məqsədilə istehsal edildiyini göstərir. Araşdırmalar Naxçıvanın, həmçinin erkən metallurgiya mərkəzlərindən biri olduğunu da göstərir. İqtisadi-mədəni əlaqələrin, ticarətin və sənətkarlığın inkişafı şəhərtipli yaşayış yerlərinin formalaşmasına səbəb olmuşdur. Duzdağda aparılan araşdırmaların tariximiz üçün əhəmiyyəti dəyərləndirilərək 20 aprel 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında, 12 sentyabr 2017-ci ildə isə Naxçıvan Duz Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən sərəncamlar imzalanmışdır. Bu sərəncamlar və onların yerinə yetirilməsindən irəli gələn məsələlərin "Şərq qapısı" qəzetinin səhifələrində müntəzəm əks olunması qədim tariximizin təbliğində mühüm rol oynamışdır.

Azərbaycan tarixinin, o cümlədən Naxçıvan tarixinin öyrənilməsi üçün əhəmiyyəti olan qədim mədəniyyətlərdən biri də eramızdan əvvəl V-III minilliklərdə burada formalaşan Kür-Araz mədəniyyətidir. Bu dövrə aid I Kültəpə, II Kültəpə, Aşağı Daşarx, Ovçular təpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Hovuzlu yaşayış yerləri, Dizə, Qaraburaq, Plovdağ, Xornu nekropollarının tədqiqi Naxçıvanın Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu deməyə imkan vermişdir. Bu baxımdan Şərur rayonunda yerləşən Ərəbyengicə abidəsinin tədqiqi nəticəsində də mühüm tapıntılar əldə edilmişdir. "Şərq qapısı" qəzetinin 21 oktyabr 2008-ci il tarixli nömrəsində dərc edilən "Ərəbyengicədə qədim mədəniyyət izləri" adlı məqalədə yaşayış yerinin alt qatlarından aşkar olunan Son Eneolitdən Kür-Araz mədəniyyətinə keçidi əks etdirən arxeoloji materialların tariximiz üçün əhəmiyyəti qeyd olunmuşdur. Arxeoloji araşdırmalar Naxçıvan abidələrinin Urmiya rayonunun abidələri ilə vahid iqtisadi-mədəni rayona daxil olduğunu göstərmişdir.

Eramızdan əvvəl III minilliyin sonunda Erkən Tunc dövrü Orta Tunc dövrü ilə əvəz olunmuşdur. Eramızdan əvvəl III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrü adlandırılan bu dövr I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızqala, Qızılburun, Nəhəcir, Şortəpə və digər abidələrdə aparılan araşdırmalarla öyrənilmişdir. II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər-dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdir. "Şərq qapısı" qəzetinin 11 fevral 2005-ci il tarixli nömrəsində dərc edilən "Yurdumuzun qədim şəhərləri", 10 dekabr 2015-ci ildə dərc olunan "Qazançı qalası" adlı məqalələrdə və digər yazılarda Orta Tunc dövrünün qala şəhərləri haqqında məlumat verilmiş, bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərinin formalaşdığı qeyd edilmişdir. Naxçıvan, II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır. Məqalələrdə qeyd edilmişdir ki, eramızdan əvvəl III minilliyə aid qala şəhərlər Yaxın Şərqdə hələlik yalnız Naxçıvan ərazisində məlumdur. Bu dövrdə əhali başlıca olaraq oturaq həyat tərzi keçirmiş, əkinçilik, yaylaq maldarlığı, sənətkarlıq və ticarətlə məşğul olmuşdur.

Eramızdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəlində bu regionun tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdır. "Şərq qapısı" qəzetinin 16 fevral 2005-ci il tarixli nömrəsində dərc olunan "Naxçıvan: Etnik-mədəni mərkəz" adlı məqalə məhz bu məsələyə həsr edilmişdir. Məqalədə qeyd olunur ki, Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın cənub rayonlarına, o cümlədən Naxçıvana yayılmışdır. Naxçıvan ərazisində bu mədəniyyətin təsiri I Kültəpə, II Kültəpə, Şahtaxtı, Kolanı, Sarıdərə, Boyəhməd, Hakkıxlıq və digər abidələrdə izlənilmişdir. Naxçıvanın dağlıq və dağətəyi zonasında Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən yaşayış yerlərində həyat mövsümi xarakterdə olduğu üçün mədəni təbəqə az yığılmışdır. Bu da həmin tayfaların köçəri həyat sürdüyünü və təsərrüfatda maldarlığın əsas yer tutduğunu təsdiq edir. Bu qrupa məxsus abidələrdən xeyli miqdarda silah tapılması, tayfa başçısına aid qəbrin aşkar olunması müəyyən hərbi qüvvəyə malik iri tayfa birliklərinin formalaşdığını göstərir. Məqalədə, həmçinin Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfaların Kür-Araz mədəniyyəti tayfalarının varisləri olduğu vurğulanmışdır.

"Şərq qapısı" qəzetinin 5 sentyabr 2008-ci il tarixli nömrəsində dərc edilən məqalədə Dəmir dövründə Naxçıvanın güclü müdafiə sisteminə malik olduğu göstərilir. Məqalədə qeyd edilir ki, müdafiə tikintiləri başlıca olaraq Naxçıvan ərazisinə qərbdən və şimaldan daxil olan yollar üzərində qurulmuşdur. Qalaların tikilmə istiqaməti, eyni zamanda yadelli basqınlarının istiqamətlərini də göstərir. Naxçıvanın cənub sərhədləri gursulu Araz çayı ilə qorunduğundan ehtimal ki, bu istiqamətdə hücumlar az olmuşdur. Şərur rayonunda Fərhad arxı boyunca salınan qala tipli yaşayış yerləri onlardan müdafiə sistemlərinin və su mənbələrinin qorunması üçün istifadə olunduğunu göstərir. Fərhad arxı ətrafında aparılan araşdırmalar zamanı onun yaxınlığından keçən qədim yolun qalıqları da aşkar olunmuşdur. Yol qalıqlarına, həmçinin Oğlanqalanın şimal yamacında rastlanmışdır. Aşkar olunan faktlar Dəmir dövründə Naxçıvanda məskunlaşan tayfalarda inkişaf etmiş əlaqələndirmə sisteminin olduğunun göstəricisidir. Dəmir dövrü yaşayış yerlərinin möhtəşəm müdafiə sistemi bu ərazidə məskunlaşan tayfaların böyük iqtisadi qüdrətə sahib olduğunu təsdiq edir. Bu dövrdə strateji cəhətdən əlverişli mövqelərdə salınan qalalar hərbi-inzibati və siyasi mərkəz rolunu oynamışdır. Məqalədə qeyd olunur ki, Oğlanqala Arpaçayın Şərur düzünə açıldığı strateji bir mövqedə yaranan kiçik dövlətin mərkəzi olmuşdur. Bu dövlət ulu əcdadlarımızın urartulara qarşı mübarizəsində mühüm rol oynamışdır.

Arxeoloji araşdırmalar göstərir ki, qədim dövrdən Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanda formalaşan qədim mədəniyyətlər xalqımızın ulu əcdadlarına məxsus olmuşdur. "Şərq qapısı" qəzetinin 11 iyul 2001-ci il tarixli nömrəsində dərc olunan "Arxeoloji abidələrin tədqiqinin nəticələri" adlı məqalədə və digərlərində bu məsələdən geniş bəhs edilmiş, Naxçıvanda yaranan qədim mədəniyyətlərin türk mənşəli Azərbaycan xalqına məxsus olduğu vurğulanmışdır.

"Şərq qapısı" qəzetinin səhifələrində, həmçinin tarix və mədəniyyət abidələrimizin bərpa olunması və qorunmasına həsr edilən məqalələrdə, eləcə də jurnalistlərimizin çoxsaylı müsahibələrində qədim tariximizin müxtəlif səhifələri öz əksini tapmışdır.

*İnanırıq ki, qədim tariximizin tərcümanına çevrilən "Şərq qapısı" qəzeti gələcəkdə də tariximizin müxtəlif problemləri ilə bağlı məsələləri işıqlandırmaqda davam edəcək, gələcəyimizə işıq tutacaqdır.*

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

*Xalq teatrlarını böyük səhnəyə gedən yolun başlanğıcı hesab etmək olar. Belə teatrların təməli isə meydan tamaşaları ilə qoyulub. Dövrünün işıqlı adamları bu sahənin inkişafında əmək sərf edərək yaşadıqları zamanda özləri də bilmədən "teatr" adlanan möhtərəm bir sənətin cücərtilərini yaradıblar. Xalq teatrının ən önəmli özəlliklərindən biri bütün elementlərin – sözlü mətn, hərəkət, oyun meydanı, oyunçuların geyimləri, oyunu yönləndirən və başqa bu kimi elementlərin vəhdətdə olmasıdır. Həm kiçik, həm də irihəcmli oyunlar sözlü, musiqili, hərəkətli olduğundan insan beyninin bir neçə bölgəsinin, məsələn, görmə, duyma, eşitmə funksiyalarının birlikdə çalışmasını təmin edir.*

## Böyük səhnəyə gedən yolun başlanğıcı



Ölkəmizdə də xalq teatrları uzun bir inkişaf yolu keçib. Bu gün də fəaliyyət göstərən belə teatrlar insanların asudə vaxtlarının səmərəli təşkilinə töhfələrini verir.

Muxtar respublikamızda da xalq teatrlarının fəaliyyətinə yaşıl işıq yandırılıb. Mədəniyyətin tərkib hissəsi olan bu sahənin inkişafına qayğının yüksək səviyyədə olması dediklərimizin sübutudur. Belə kollektivlərdən biri də muxtar respublikamızda ilk xalq teatrı kimi 1964-cü ildə yaradılmış Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrıdır.

Adıçəkilən kollektivin fəaliyyəti ilə yaxından tanış olmaq üçün teatrın rejissoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günəş Ağayevaya müraciət etdik. Öncə onu bildirək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikamızda keçirilən xalq teatrlarının festivalında Günəş Ağayeva "Ən yaxşı aktrisa" nominasiyası üzrə diploma layiq görülüb.

O bildirdi ki, kollektivə 1989-cu ildə yaradılmasının 25 illiyi və səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının Əməkdar kollektivi" fəxri adı verilib. Sonrakı dövrlərdə ictimai-siyasi vəziyyətlə əlaqədar teatrın fəaliyyəti müvəqqəti olaraq dayandırılıb. 2006-2019-cu illərdə Cəlil Məmmədquluzadənin "Kamança", Üzeyir Hacıbəyovun "Ər və arvad", Rəşid bəy Əfəndiyevin "Saqqalın kəraməti" və "Tiflis səfəri", Əbdürrəhim bəy Haqverdiyevin "Yeyəsən qaz ətini, görəsən ləzzətini", Sabit Rəhmanın "Yalan", Həsənəli Eyvazlının "Vəzifə hərisi" komediyaları ilə teatrsevərlərin görüşünə gəlib.

2020-ci ildə Naxçıvan Film Fondu tərəfindən Hüseynbala Mirələmovun "Axirətdən gələn zəng" ikihissəli dramatik komediyası, Firuz Mustafayevin "Sevməsəm ölərəm" ikihissəli komediyasının çəkilişləri aparılaraq Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin "YouTube" səhifəsində paylaşılıb.

Bu il isə İxtiyar Piriyevin Qarabağ savaşına həsr olunmuş "Qanlı qızıl toy" ikihissəli qəhrəmanlıq dramı ordubadlı teatrsevərlərə təqdim olunub.

Hazırda teatrda 26 həvəskar aktyor və aktrisa fəaliyyət göstərməkdədir. Bu da teatrın daha dolğun və keyfiyyətli səhnə əsərləri hazırlamasına imkan verib. Kollektiv bu imkanlardan səmərəli istifadə etməyə səy göstərir, qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışır.

Teatrda onu da müşahidə etdik ki, həmin vəzifələrin yerinə yetirilməsində gənc aktyorlar da xüsusi fəallıq göstərirlər. Bu gün teatrda Arzu Bağırova, Nağı Əlisoy, Pinar



Bilalova və Nadir Məhərrəmov kimi istedadlı gənclər var. Arzu edirik ki, böyük teatrın astanasında olan belə gənclərimizin sıraları daha da genişlənsin, kollektiv maraqlı səhnə əsərləri ilə teatrsevərlərin mənəvi tələbatının ödənilməsinə daha çox töhfə versinlər.

Şahbuz Rayon Mədəniyyət Şöbəsində fəaliyyət göstərən Xalq Teatrı da belə kollektivlərdən biridir və rayonun mədəni həyatında fəal iştirak edir. Teatrın rejissoru Namiq Mehdiyev deyir ki, xalq teatrı müxtəlif xarakterlərin, obrazların bir və ya bir neçə oyuncu tərəfindən canlandırılması olub roloynama sənətidir. Meydan tamaşasında oyunçu öz oyununu deyil, oynamaq zorunda qaldığı rolu canlandırır. Bunun üçün paltardan, səhnədən, səhnə dekorasiyasından, maskadan istifadə etməli olur. Roloynayan oyunçu müəyyən bir ssenariyə bağlı qalmaq, canlandırdığı xarakterin sözlərini əzbərləmək məcburiyyətindədir. Nisbi sərbəstlik, bəzən yazılı mətnə baxmaq, bəzən kənara çıxmalar heç də bütünlükdə əvvəlcədən mövcud olan sözlü və ya yazılı mətnin dəyişdirilməsi demək deyildir.

Təhkiyəli tamaşalarda hadisələrin keçəcəyi məkan, qaydalar, oynanacaq xarakterlərin cinsi, irqi, sosial durumu və sair haqqında öncədən bilgi əldə edilir, səhnədə, oyun müddətində bunlar bu və ya digər dərəcədə diqqətə alınır.

Öyrəndik ki, bu gün teatrda 15 nəfərlik heyət fəaliyyət göstərir. İlk dəfə Səid Rüstəmovun "Beş manatlıq gəlin" komediyası ilə tamaşaçı qarşısına çıxan teatrın bu il on illiyi tamam oldu. Müxtəlif illərdə ayrı-ayrı komediyaları səhnələşdirən teatr 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində Vətən müharibəsi şəhidlərimizi anmaq üçün Tofiq Seyidovun "Qarabağ şikəstəsi" əsərini səhnələşdirərək hərbçilərə təqdim edib.

*Bu gün muxtar respublikamızda xalq teatrlarının fəaliyyətlərinin genişləndirilməsi bir tərəfdən insanların asudə vaxtının səmərəli təşkilinə şərait yaradır, digər tərəfdən rayonun mədəni həyatına müsbət təsir göstərir. Biz də hər iki kollektivə gələcək fəaliyyətlərində səhnə uğurları, tamaşaçı sevgisi arzulayırıq.*

✍ **Telli MƏMMƏDOVA**

## Heyvandarlara tibbi xidmət göstəriblər



Yay mövsümünü Şərur, Şahbuz, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2014-cü ildən xüsusi həkim briqadaları yaradıb. Bu gün obalarda yaşayan sakinlərə lazım olan dərman vasitələri, sarğı materialları, onlarla səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəb sancmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi həmin həkim briqadaları tərəfindən diqqətdə saxlanılır.

Nazirliyin iş planına uyğun olaraq, yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilir.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkimləri "Çadırdaş" ərazisindəki yaylaqda məskunlaşan heyvandarlara baş çəkiblər. Briqadanın fəaliyyəti zamanı heyvandarların hamısı profilaktik tibbi müayinəyə cəlb olunub. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaq ağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunub, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Seminar keçirilib



*Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı maarifləndirici seminar olub.*

Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin iclas zalında keçirilən seminarda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Eltun Həziyev, Təhsil Nazirliyi aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş şöbəsinin müdiri Abdulla Əsgərov, Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitar-gigiyena şöbəsinin müdiri Elxan Orucəliyevin çıxışları olub. Bildirilib ki, uşaq sağlamlığının qorunması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir.

Qeyd olunub ki, bu gün uşaqların hər biri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmişdir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının yaradılması, uşaqların sağlamlığının qorunması ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Ali Məclis Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə görülən tədbirlərin effektivliyini daha da artırmışdır.

Qeyd edək ki, seminarda Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, məktəbdənkənar və məktəbəqədər müəssisələrin əməkdaşları iştirak ediblər.

✍ **Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 8472 | 626,9 | 626,9 | 100,0 |
| 2. | Şərur rayonu | 2906 | 208,7 | 208,7 | 100,0 |
| 3. | Babək rayonu | 2874 | 213,2 | 213,2 | 100,0 |
| 4. | Ordubad rayonu | 1544 | 112,1 | 112,1 | 100,0 |
| 5. | Culfa rayonu | 1869 | 140,4 | 140,4 | 100,0 |
| 6. | Kəngərli rayonu | 987 | 71,8 | 71,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 470 | 33,7 | 33,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 551 | 39,0 | 39,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28824 | 2594,2 | 2587,6 | 99,7 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **48497** | **4040,0** | **4033,4** | **99,8** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla verilən 48 milyon 497 min kilovat-saat elektrik enerjisinin dəyəri 4 milyon 40 min manat olmuş, cəmi 4 milyon 33 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,8 faizini təşkil edir.

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

## Boks birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Kəngərli rayonunun idmançıları da mübarizə aparıblar.

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 27 çəki dərəcəsində 60-a yaxın dəri əlcək sahibi qüvvəsini sınayıb. Gərgin mübarizə şəraitində keçən döyüşdə Elmurad Kərimli (24 kiloqram, Naxçıvan), Səfələddin Əhmədli (26 kiloqram, Kəngərli), Sunay Adıgözəlli (28 kiloqram, Naxçıvan), Sahil Orucov (30 kiloqram, Kəngərli), Rəhim Süleymanov (32 kiloqram, Naxçıvan), Turqut Süleymanov (34 kiloqram, Naxçıvan), Miryusif Seyidli (36 kiloqram, Kəngərli), Ramiq Nəcəfli (38 kiloqram, Kəngərli), Haqverdi Həsənov (40 kiloqram, Naxçıvan), Sənan Muxtarov (41 kiloqram, Naxçıvan), Tural Rzayev (42 kiloqram, Kəngərli), Elnur Babayev (43 kiloqram, Naxçıvan), Abbas Babayev (43,5 kiloqram, Naxçıvan), Ucar Musayev (44 kiloqram, Kəngərli), Elay Hüseynbəyli (44,5 kiloqram, Naxçıvan), Ümid Rəhimli (46 kiloqram, Naxçıvan), Əlövsət Novruzov (47 kiloqram, Naxçıvan), Sinan Əbilov (48 kiloqram, Kəngərli), İlham Əliyev (49 kiloqram, Naxçıvan), Ayxan Heydərov (50 kiloqram, Naxçıvan), Musa Rəhimli (52 kiloqram, Naxçıvan), Elgün Quliyev (52,5 kiloqram, Naxçıvan), Cabbar Əliyev (54 kiloqram, Naxçıvan), Nurlan Quliyev (57 kiloqram, Naxçıvan), Əli Abdullazadə (63 kiloqram, Naxçıvan), Əfrasiyyət Həsənov (70 kiloqram, Naxçıvan) və Hüseyn Novruzov (75 kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonu, Mahmudkənd sakini Ələkbərov Hüseyn Beytulla oğlunun adına olan JN-317A inventar nömrəli 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 31, mənzil 28-də qeydiyyatda olan Tağıyeva Çimnaz İsrafil qızının adına olan 6639 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 632